# Milli-mədəni irsimizin qorunması və təbliğində kitabxanaların rolu

***Kitabxanaların öhdəsinə düşən ən ümdə vəzifələr sözsüz ki, indi həyatımızın bütün qatlarını əhatə edən dəyişikliklər respublikamızda yaranmış mürəkkəb mənəvi-psixoloji prosesdə yaxından iştirak etmək, işin təbliğat və təşviqatçılıq sahəsini yaxşılaşdırmaqdan ibarətdir.***

Bu nəcib peşə sahiblərinin mədəni irsimizin qorunması və təbliğindəki fəaliyyətləri xüsusilə önə çəkilməlidir. Məlumdur ki, çoxəsrlik tarixə malik Azərbaycan xalqının zəngin mədəni irsi dünyanın diqqət mərkəzindədir.

Ulu babalarımızın qayalara həkk etdiyi şəkillər, orta əsrlərdə tikilmiş bir sıra nadir memarlıq abidələri, sənətkarlarımızın misdən düzəltdiyi yaraşıqlı məişət qabları, zərgərlik işləri, müxtəlif çeşidli xalçalar sübut edir ki, xalqımızın mədəniyyəti zəngindir. Təsadüfi deyil ki, dünyanın onlarca iri şəhərlərindəki incəsənət muzeylərində Azərbaycanda yaranmış nadir sənət nümunələri saxlanılır.

Dünya ədəbiyyatı xəzinəsinə əvəzsiz incilər bəxş etmiş Azərbaycan ədəbiyyatının qədim tarixi vardır. Onun Nizami Gəncəvi kimi dahi sənətkarı və söz ustası hələ XII əsrdə dünyaya səs salmışdır. Şairin "Xəmsə"sinə daxil olan poemalar indi də təravətini saxlamaqda və dünyanın müxtəlif guşələrində özünə saysız-hesabsız pərəstişkarlar tapmaqdadır.

Nizami Gəncəvi sənətindən söhbət açan Avstriya şərqşünası Xristorf Bürqel haqlı olaraq qeyd edir ki, Nizami Şərqin ən böyük şairlərindən biridir. O, dühasının nuru ilə əsrlər boyu dünya şairlərinin yaradıcılığına öz müsbət təsirini göstərmişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, son illərdə xarici ölkələrdə Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi və mədəniyyətini öyrənməyə, onu tədqiq etməyə maraq daha da artır. Son zamanlar bu sahədə onlarca tədqiqat işləri və monoqrafiyalar meydana gəlmişdir.

Mədəni irsimiz haqqında yazılmış xarici dildə olan materialları toplayıb oxuculara çatdırmaq məqsədilə M.F.Axundov adına Milli kitabxana dünyanın böyük şəhərləri - Paris, Nyu-York, Qahirə, Tehran, Kanberra, Bağdad, London, Münxen, Helsinki, Varşava, Budapeşt, Havana, Sofiya, Təbriz, Buxarest, Leypsiq, Belqrad, Ankara, Hanoy, Praqa, Pxenyan və dünyanın bir çox şəhərlərindəki kitabxanalar və elmi idarələrlə kitab mübadiləsi aparır.

Almaniyadan göndərilən H.V.Vrandsın Azərbaycan xalqının həyatı və M.F.Axundov komediyalarında yenilik təmayülü, H.V.Dudanın "Fərhad və Şirin", F.Meyerin "Gözəl Məhsəti", F.Bodenştetin "Mirzə Şəfinin irsindən", Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması, "Türk filologiyasının əsasları" kitabları və başqa materiallar bu qəbildəndir.

Təqdirəlayiq haldır ki, "Türk filologiyasının əsasları" monoqrafiyasında digər türkdilli xalqların ədəbiyyatı ilə yanaşı, Azərbaycan ədəbiyyatının tədqiqinə də geniş yer verilmişdir. Kitabda türk professoru Əhməd Cəfəroğlu "Azərbaycan ədəbiyyatı" adlı 60 səhifəlik məqaləsində ədəbiyyatımızın inkişaf yollarını, onun təşəkkülünü ətraflı şərh edir; Azərbaycan dilinin hələ XIII əsrdə ədəbi dil kimi şöhrət tapmasına dair dəlillər gətirir. XIII əsrdən başlayaraq Həsənoğlu, Qazi Bürhanəddin, İ.Nəsimi və başqa şairlərin Azərbaycan dilində yazıb yaratmasından danışır. O, Azərbaycan ədəbiyyatını dövrlərə bölərək, geniş təhlil vermişdir. Maraqlıdır ki, mübadilə yolu ilə alınan əsərlər ədəbiyyat tarixinin dair bir sıra mübahisəli məsələlərin həllinə yaxından kömək edir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hələ son illərə kimi xarici tədqiqatçıların bir çoxu Nizami Gəncəvini yanlış olaraq İran şairi kimi qələmə verməyə, onun Gəncədə deyil, Qum şəhərində anadan olmasını sübut etməyə çalışmışlar.

"Sirlər xəzinəsi"ni türk dilinə çevirmiş M.Nuri Gənc Osman kitaba yazdığı müqəddimədə Nizaminin hansı ölkəyə mənsub olması və harada doğulmasından geniş söhbət açaraq xarici ölkə tədqiqatçılarının yanlış fikirlərinə bir daha son qoymuşdur. Bunun üçün o, hələ XV əsrdə yaşamış Əbdülrəhman Caminin Nizami haqqında "Baharıstan" əsərində yazdığı fikri oxuculara çatdırmışdır: "Nizami Gəncəlidir. Çox aydın və dolğun olan kamalının şərh və izaha ehtiyacı yoxdur. "Beş xəzinə" əsərinə o qədər gözəlliklər və incəliklər doldurmuşdur ki, bu şərəf heç kimə nəsib olmamışdır. Belə bir əsər, bəlkə də bəşər qüdrətinin yetişdirməyəcəyi bir xarüqədir".

Kitabxanamıza Polşa, Bolqarıstan və Çexoslovakiyadan da Azərbaycan ədəbiyyatına, Azərbaycan xalqı ilə bolqar, polyak, çex xalqları arasında ədəbi əlaqələr tarixinə dair maraqlı tədqiqat materialları və monoqrafiyalar daxil olmuşdur. Bu cəhətdən bolqar şairi Petko Slaveykovun "Seçilmiş şerlər" kitabı, Polşa şərqşünası Jan Peymanın "XIX əsrin I yarısında polyaklar tərəfindən yazılmış Azərbaycan xalq mahnıları" və "Şərqin Polşa mədəniyyətinə təsiri" monoqrafiyası da maraqlıdır.

XIX əsrin II yarısında Almaniyada geniş şöhrət tapmış Azərbaycan şairi Mirzə Şəfi Vazeh bolqar şairlərinin yaradıcılığına da güclü təsir göstərmişdir.

Məşhur çex şərqşünası Jan Pinka ömrünün xeyli hissəsini Azərbaycan ədəbiyyatının tədqiqinə sərf etmişdir. O, 1959-cu ildə Leypsiqdə alman dilində, 1968-ci ildə Hollandiyada ingilis dilində nəşr etdirdiyi "İran ədəbiyyatı tarixi" adlı kitabına "Azərbaycan ədəbi məktəbi" adlı xüsusi fəsil ayıraraq klassik Azərbaycan ədəbiyyatı haqqında oxuculara ətraflı məlumat vermişdir.

Müəllifin "Azərbaycan ədəbi məktəbi" adlı məqaləsi 1968-ci ildə "Kembric İran tarixi" əsərinin V cildinə düşmüşdür. Hər iki əsər bu günlərdə Londondakı Bodlin kitabxanasından alınmışdır.

Jan Pinka eyni zamanda Nizami yaradıcılığına dair onlarca əsərin müəllifidir. Onun Nizaminin "Yeddi gözəl" poemasında atalar sözlərinə dair bəzi qeydlər" məqaləsi 1967-ci ildə Visbadendə məşhur alman şərqşünası Otto Şpisin 65 illiyi münasibəti ilə nəşr edilmiş "Şərq tədqiqatda" adlı monoqrafiyaya daxil edilmişdir.

Respublikamız öz müstəqilliyinə qovuşduqdan sonra bu əlaqələr daha da güclənmişdir ki, bunun da Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna əhəmiyyəti vardır. Onlardan biri də nankor qonşularımız tərəfindən təcavüzə məruz qalmağımız, milli-mədəni dəyərlərimizin ermənilər tərəfindən



talan edilməsidir.

Bu sahədəki acılarımızı ifadə etmək baxımından Z.Verdiyevanın fikirləri dolğun və sərrastdır: "İnsanlar tükənməz arzuların cəfakeş sarvanı kimi günəşin işığından, torpağın bərəkətindən güc aldıqca əbədi dünyada öz ömrünü yaşayıb iz qoymaq üçün neçə milyon ildir ki, səfərdədir. Deyilənə görə Allah insanları dini mənsubiyyətinə ayıranda istəyib ki, hamı bir-birini daha yaxından öyrənib tanısın, bir-birindən yalnız yaxşını əxz eləsin, düşmən cəbhələrə ayrılmasın. Fikirlərdə, əqidələrdə ayrılıq sərhəd dirəkləri kimi ucaldıqca mənəvi yalqızlıq ən böyük düşmənə çevrilir. İnsanlara tale yazan zamandır, tarixi yaradan, yazan isə insanlardır" (17, s.3).

Azərbaycan həmişə beynəlmiləlçiliyi ilə seçilib. Onun qoynunda öz xoşbəxtliyinə çatanlar bizim xeyirxahlığımızdan, səxavətimizdən həmişə razılıq ediblər. Lakin eləsi də tapılıb ki, özümüzə qarşı laqeydliyimizdən məharətlə istifadə edib. Onlara bəslədiyimiz ifrat qayğılara cavab olaraq öz torpağımızda yaşamaq hüququndan bizi məhrum etmək məqsədilə "Qarabağ problemi" adı altında özümüzə meydan oxuyurlar... Evimizə, ocağımıza gəlin köçən erməni qızları neçə min azərbaycanlı qızının bədbəxtliyinə bais oldu. Taleyin acısı bizim olub, şirini onların. Azərbaycanlı anaları övladlarını beynəlmiləl ruhda tərbiyə etsə də erməni qadınları beşik başında körpəsinə "Türk sənin düşməənindir", - laylasını oxuyub. Düşmənlərin fitnə-fəsad yuvasına dönmüş köksü yaralı Qarabağın toyu, şənliyi yasa bürünüb, qorxulu xərçəng xəstəliyi kimi dünyanın hər tərəfinə səpələnmiş erməni diasporu xalqımızın iradəsini qırmaq üçün uzun illər hazırlanmış planlar əsasında öz çirkin arzularını həyata keçirir" (yenə orada, s.4).

> **"Söyləməyə lüzum yoxdur ki, "kitab bəşər dühasının kəşf etdiyi ən nadir sərvətdir. Bu sərvət bütün dövrlərdə cəmiyyətlə insan arasında mənəvi ünsiyyət körpüsü olub. Ona görə də bütün işıqlı zəka sahiblərinin hamısı kitaba borcludur" (3, s.30). Bu gün ölkədə gedən mürəkkəb yeniləşmə hərəkatında xalqın ictimai şüurunun, təfəkkür və düşüncə tərzinin yeni istiqamətə yönəlməsində onun rolu daha da artır.**

Neçə illərdir analarımız yasdan çıxıb yasa batır, matəm libasını soyunmur. Neçə ildir ki, sevib-sevilməyə, gözəlliyə, ülviliyə çağıran doğma Qarabağın bərəkətli torpağından, onun dilbər guşələrindən, qəlb oxşayan mədəniyyətindən, incəsənətindən uzaq düşmüşük" (yenə orada, s.4).

Bununla belə biz gözləmə mövqeyi tutmamalıyıq. İşğal olunmuş ərazilərdə olan milli-mədəni irs haqqında hər birimiz düşünməliyik. "Bu təkcə bir neçə quruma deyil, hər birimizə aiddir. Gözləməməliyik ki, işğal olunmuş torpaqlarda Azərbaycan xalqının mədəniyyətinə aid olan irsin vəziyyətini AŞPA-nın Faktaraşdırıcı Missiyası və başqa qurumlar araşdırsın. Baş verənləri hər birimiz təhqir kimi qəbul etməliyik. Başqa qurumlar ermənilərin milli mədəniyyətimizə sahib çıxmalarının qarşısını ala bilməz. Bunu gözləsək, ermənilər daha çox mahnılarımızı öz adlarına çıxacaqlar. Ermənilər öz adlarına çıxdıqları mahnıların kiminsə Azərbaycana məxsus olduğunu deyəcəyini gözləmək lazım deyil. Bu il ilk dəfə Avropada "Arşın mal alan"ı səhnəyə qoyduq. Üzeyir bəyin heykəlini açdıq. Belə tədbirlər daha səmərəli olur" (7).

Bu baxımdan, kitabxanaların qarşısında mühüm vəzifələr durur. Fəaliyyətlərinin səmərəliliyini artırmaq üçün onlar texnoloji proseslərin avtomatlaşdırılmasına, məlumat-informasiya bazası əsasında qlobal internet şəbəkəsinə qoşulmağın sürətləndirilməsinə, Azərbaycan dilində sistemli kataloqun kompüterləşdirilməsinə ciddi fikir verməlidirlər.

"Kitabxana bilavasitə kitab və insan münasibətlərindən təzahür etdiyindən ilk əvvəl oxucu elementinin, oxucularla fərdi işin aparılmasının psixoloji məzmununu açıqlayaq. Müasir dövrdə oxucularla iş aparmaq böyük məsuliyyət və qayğı tələb edir. Oxucuların sorğuları müxtəlif və rəngarəngdir. Onların hər birinin zövqünü təmin etmək, istədikləri ədəbiyyatı əldə etmək, nəhayət, mütaliəsini düzgün istiqamətləndirmək üçün oxucularla fərdi iş aparmaq lazımdır" (4, s.50).

Lakin burada belə bir sual meydana çıxır. Hər kitabxanaya gələni şəxsi oxucu hesab etmək olarmı?! Əlbəttə, yox. "Oxucu" sözü öz məzmununda kitaba təkcə bir günlük tələbi olan adamı ifadə etmir, əksinə kitaba daimi ehtiyacı olan, öz professional səviyyəsini və mənəvi zənginliyini həmişə təkmilləşdirən, kitabxananın daimi abonenti olan və ictimai fəaliyyətində ardıcıl iştirak edən, sistemli qaydada biliklərə yiyələnmək istəyən, kitabxana mühiti yaradan ziyalı şəxslər oxucu tituluna sahib ola bilərlər. Təsadüfdən-təsadüfə kitabxanaya müraciət edənlər oxucu deyildir. "Oxucu" sözünün özündə bir ziyalılıq duyulmalıdır. Oxucularla fərdi iş aparılarkən oxucu şəxsiyyətinin psixikası dərindən öyrənilir ki, bu da yüksək kitabxana xidmətini təşkil etməklə, oxucu tiplərini müəyyənləşdirməkdə, oxucuların müəyyən, qeyri-müəyyən, konkret və mövzu sorğularının ödənilməsində kitabxanaçıya yaxından kömək edir.

Bununla belə oxucuların zövqlərinin formalaşmasında kitabxanaçıların oynadığı rolu danmaq olmaz. Kitabların müəyyən mövzu üzrə sərgisinin təşkili bu mənada, xüsusilə əhəmiyyətlidir. "Sərginin daha təsirli olması üçün oxucularla söhbət və kitab xülasələrinin keçirilməsi olduqca vacibdir. Canlı söhbət oxucuların diqqətini sərgiyə daha çox cəlb edir. Kitab xülasələri isə yalnız kitabların miqdarı haqqında məlumat verməklə kifayətlənməyib, sərginin məqsədi, quruluşu, ayrı-ayrı bölmələrdə olan kitabların xarakteristikası və s. haqqında oxucuların təşəbbüsünü genişləndirir" (15, s.25).

Təəssüflə qeyd etməliyik ki, indi hər addımda min bir qayğı və çətinliklərlə üzləşən cəmiyyəti, xüsusilə də ziyalıları bir problem daha çox narahat edir. Ən zəngin bilik mənbəyi hesab etdiyimiz kitaba maraq, oxumağa meyl azalıb. Bu acı həqiqəti doğuran müxtəlif amillər mövcuddur. Buna yeni məlumat vasitəsi olan texnikanın inkişafından tutmuş kitabların keyfiyyətsizliyinə qədər onlarla səbəb göstərmək olar.

Qəribədir ki, bu problemlərin içərisində ən çox çaş-baş qalan da, əziyyət çəkən də kitabxanalar, kitabxanaçılardır. Sual doğur: "Əgər oxuyan yoxdursa, onda kitabxanalar nə üçündür? Və yaxud: "Kitabxana yaşayır və işləyirsə oxucu niyə olmasın?!"

Etiraf etməliyik ki, son illərədək kitabxanaların yeni ədəbiyyatla təminatı dözülməz idi. Prezidentimizin latın qrafikalı ədəbiyyatın nəşri ilə bağlı məlum fərmanınadək bu sahədəki puça çıxan hər bir cəhd kitabxanaların tədricən öz funksiyalarını itirib köhnə kitab anbarlarına çevrilmələri ilə sonuclanırdı. Bir tərəfdən bu, maliyyə çətinlikləri ilə bağlıdırsa, digər tərəfdən yerli

icra hakimiyyəti orqanlarının laqeydliyinin nəticəsidir. Əks təqdirdə onlar maliyyə şöbələrinin fəaliyyətinə nəzarəti gücləndirər, narazılıq doğuran cəhətlərin aradan qaldırılması üçün müvafiq ölçü götürərdilər. Söhbət MKS rəhbərlərinin kitab almaq üçün maliyyə şöbələrinə müraciətlərinin bir qayda olaraq cavabsız qalmasından gedir. Təəccüb və təəssüf doğuran cəhət odur ki, adət etdikləri "yox!" cavabını verən maliyyə şöbələri bu zaman fərqinə varmadan qanun adından danışırlar.

Halbuki "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsində deyilir: "Dövlət kitabxanaları və büdcədən maliyyələşən təşkilatların tabeçiliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir;

Dövlət kitabxanaları maliyyələşdirərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir" (1, s.128-129).

Digər bir çatışmazlıq da təəssüf doğurur. Belə ki, kitabxanaçılar bəzən çətinliklə əldə etdikləri vəsaiti səmərəli şəkildə xərcləmirlər. Axı onların ən ümdə vəzifələrindən biri də fondun sayını kor-koranə artırmağa deyil, oxucu marağına uyğun aktual ədəbiyyat almaq qayğısına qalmaqdan ibarətdir. Onlar ərazinin oxucu kontingentinin tələbinə uyğun ədəbiyyat tapmalı və kitabxanasına gətirməlidirlər. Təbii ki, bununla da vəzifəni bitmiş hesab etmək olmaz. Bunun üçün müxtəlif reklam vasitələrindən (radio, televiziya, qəzet, yeni kitab sərgiləri, kitab gecələri, oxucu diskussiyaları və s.) istifadə edilməlidir.

Təəssüf ki, çox vaxt bu sahədəki yarıtmaz işini ört-basdır etmək istəyən kitabxanaçılar əlifbanın dəyişdirilməsini əsas səbəb, böyük problem kimi irəli sürürlər. Söz yox ki, kitabxanalara axının azalmasında bu amilin də öz təsiri var. Bununla belə işini yüksək səviyyədə quranlar üçün bu problem də həll ediləndir.

Kitabxanaçı savadlı, çevik olanda, oxuculara düzgün istiqamət verəndə hər şey öz müsbət həllini tapır. Bu yerdə "Kitabxana işi haqqında" Qanunun 20-ci maddəsinin axırıncı bəndinə istinad etməklə fikrimizi bir az da dolğunlaşdırmaq istəyirik: "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirməsinə fəal yardım etməkdən ibarətdir" (yenə orada, s.126).

Söyləməyə lüzum yoxdur ki, sivilizasiyanın nailiyyətləri arasında kitabxanaya analoq tapmaq çətindir. Kitabxana canlı orqanizmi, evi xatırladır. Kitabxanada insan ruhən dincəlir, rahatlıq və təsəlli tapır, kədərlənir və möhkəmlənir. Antik mütəfəkkirlərin İsgəndəriyyə kitabxanasının divarına yazdıqları "Kitabxana ruha şəfa verir" sözləri bu fikri tamamlayır.

"Kitabxana kainatdır" deyən X.L.Borxes isə daha sonra yazırdı: "Mən kitabxanaya oxşar cənnəti görmüşəm".

Doğrudan da, kitabxana - kitabların məskəni olan, sonsuz kainatı təcəssüm etdirən bir aləmdir. Kitab oxumaq, biblioqrafik axtarış və elmi tədqiqat prosesi insanı varlığın sirlərini açmağa yaxınlaşdırır (12,s.33).

Kitabxana qarşısında duran vəzifələr bu yeri bizə daha da doğmalaşdırır:

Mühafizə. Bu, kitabxananın tarixən yaranmış funksiyasıdır.

Biliyin sistemləşdirilməsi. Kitabxanaya daxil olmuş informasiya resursları sistemləşdirilir və yeni resurslar yaranır.

İnsanın təhsil və tərbiyəsində iştirak. İnformasiya mədəniyyətinin formalaşması.

İnformasiya resurslarından istifadə edilməsi, təhsilin diferensiasiyası.

Şəxsin informasiyadan istifadə etməsi hüququnun təmin edilməsi.

Qeyd etmək lazımdır ki, informasiya mədəni irsinin qorunub saxlanılması, cəmiyyətin demokratikləşdirilməsi funksiyaları da bu gün kitabxanaların üzərinə düşür.

Kitabxana xalqın mədəni yaddaşını qoruyur. Buna görə də kitabxanaların varlığı sivilizasiyanın mövcud olmasının mühüm şərtidir.

***Bütün bunları nəzərə alaraq sonda bir həqiqəti xatırlatmaq istəyirik. Kitabxanalar xalqın mənəvi inkişafında əvəzsiz rol oynayır. Bunu hər bir kitabxanaçı yaxşı bilməli, könül verdiyi peşənin məsuliyyətini bir an belə unutmamalıdır (18, s.4).***

**Yaşar VƏLİYEV**

## Ədəbiyyat


1. "Kitabaxana işi haqqında" Azərbaycan Respublikası Qanunu. "Mədəniyyət fəaliyyətinə aid qanunlar toplusu". B.2003.
2. Bədəlov E. Kitabxanalar milli yaddaşımızdır. "Mədəni-maarif işi" jurnalı, 1990.
3. Əkbərov H. Oxucularla fərdi işin mahiyyəti və psixoloji məzmunu. "Mədəni-maarif işi" jurnalı, 1990.
4. Əliyev N. Oxucularla fərdi işin mahiyyəti və psixoloji məzmunu. "Mədəni-maarif işi" jurnalı, 1990.
5. Əliyeva Z., Əfəndiyev Ə. İnformasiya cəmiyyəti və kitabxanalar. "Mədəni-maarif işi" jurnalı, 2001 №7/8.
6. Əlizadə A. Milli müəyyənlik və mədəniyyət. "Mədəni-maarif işi" jurnalı, 2006, №2.
7. Qarayev Ə. Problemimizi kiminsə həll edəcəyini gözləməməliyik. "Dünya -Press" qəzeti, 11 dekabr 2006-cı il.
8. Mehrəliyeva N. Gənclərin mənəvi tərbiyəsi. "Mədəni-maarif işi" jurnalı, 1999 №1.
9. Mehrəliyeva N. Məktəblilərin mənəvi tərbiyəsi. "Mədəni-maarif işi" jurnalı, 2001 №7/8.
10. Mehrəliyeva N. Oxucu konfransları və onların təşkili. "Mədəni-maarif işi" jurnalı, 2002 №1/2.
11. Məmmədov Ə. Milli adət və ənənələr. B. "Mars-Print", 2000.
12. Məmmədova L. Kitabxanalar müasir sosial-mədəni mühitdə. "Mədəni-maarif işi" jurnalı, 2006, №11.
13. Muradov M. Kitabxana sənədlərinin təkmilləşdirilməsi. "Mədəni-maarif işi" jurnalı, 1999 №1.
14. Rəhimova Ə. Uşaq kitabxanalarında oxucularla fərdi işin təşkili. "Mədəni-maarif işi" jurnalı, 2003 №4.
15. Rüstəmov O. Kitab sərgilərinin təşkili. "Mədəni-maarif işi" jurnalı, 1979 №1.
16. Tağıyev N. Oxucuların şəxsi təhsilində kitabxanaların rolu. "Mədəni-maarif işi" jurnalı, 1972 №1.
17. Verdiyeva Z. Bir ömrə sığmayan arzular. B. "Şərq-Qərb", 1992.
18. Vəliyev Y. Kitabxanalar və oxucu problemi. "Mədəni-maarif işi" jurnalı, 2002 №6.
19. Vəliyev V. Azərbaycan folkloru. B. "Maarif", 1985.